# شرح ألفاظ الأذان

# Azanın sözlərinin izahı

## Azanın sözlərinin izahı

İslami Məzmun Xidmətləri Cəmiyyətinin Müxtəlif Dillər üzrə Elmi Komitəsi

## Azanın sözlərinin izahı

İslami Məzmun Xidmətləri Cəmiyyətinin Müxtəlif Dillər üzrə Elmi Komitəsi

Azan, müsəlmanın gündə beş dəfə eşitdiyi, ona Allahın əzəmətini xatırladan və onu xeyirə və nicata dəvət edən Rəbbani bir çağırışdır. O, insanla Xaliqi arasında bir rabitə anıdır ki, bu zaman insan dünyanın səs-küyündən ayrılıb Rəbbinə münacat edir. Azan təkcə namaz vaxtının elanı deyil, həm də hüzura, imana və Allahla əlaqənin yenilənməsinə bir çağırışdır. Azan, Allahı təzim etməklə başlayan və namaza dəvətlə sona çatan ali mənalar daşıyır. Müsəlman isə onunla qəlb rahatlığı tapır. Hər dəfə azan səsləndikdə, qəlbə: “Həqiqi həyat Allaha yaxınlıqla başlanır” — deyə bir pıçıltı yayılır.

## Azanın sözləri:

**Allahu Əkbər, Allahu Əkbər, Allahu Əkbər, Allahu Əkbər**

"Allah ən böyükdür"

"Allah" kəlməsi (Ləfz əl-Cələlə) "məbud", yəni: "ibadət olunmağa/ ilahlaşdırmağa haqlı" - olan deməkdir. Bu ad, Uca Xaliq olan Rəbbin adıdır. Bütün ilahi adlar ona tabe olub, Onu vəsf edir. Allah

Vahiddir, Əhəddir. O, nə doğmuş, nə də doğulmuşdur. Göylərin və yerin Xaliqi də Odur.

“Allah Əkbər” ifadəsinin mənası, Allahın hər şeydən əzəmətli olması və cəlalına və kamilliyinə yaraşmayan şeylərin Ona nisbət edilməsindən daha uca olması deməkdir.

“Allah Əkbər”... Bu ifadə müsəlmana xatırladır ki, bu həyatda heç bir şey onu öz Xaliqindən yayındırmamalıdır və insan həyatını öz nəfsinin istəklərinə və şəhvətlərinə görə deyil, Allahın iradəsinə və şəriətinə uyğun qurmalıdır. Çünki Allah dünyadakı hər şeydən ən əzəmətlidir.

“Allahu Əkbar” sözünü eşidən zaman sənətkar işini, əkinçi əkinini, tacir dükanını, müəllim isə dərsini dayandırır. Çünki Allah hər bir işdən və əməldən böyükdür. İşini bu cür dayandırıb ibadətə yönəlmək, Allahın möminin qəlbində bütün dünya malından daha böyük olduğuna dəlildir. Allah hər bir bəla və müsibətdən, həyatdakı hər bir vəziyyətdən daha böyükdür. Kim buna iman gətirsə, böhranları kiçik görər və qəlbi arxayın olar, çünki o, Allahın qəzasına razı, Onun hikmətinə və tədbirinə etibar edən biri olaraq Allahladır.

**"Şəhadət verirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur, şəhadət verirəm ki,**

**Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur".**

"Şəhadət verirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur".

Bu, birinci şəhadətdir və mənası: Allahın hər şeyin yaradanı, Rəbbi, sahibi və idarə edəni olduğunu; ibadətin Ondan başqasına deyil, yalnız Ona edilməsinin vacib olduğunu; Allahdan başqa ibadətə layiq haqq məbudun olmadığını; Onun tək olduğunu, şəriki, övladı və bənzəri olmadığını iqrar etməkdir. Buna görə də, ibadət Allahdan qeyrisinə edilməz və Allahdan başqasına dua edilməz.

Bu şəhadət mövcudiyyətdəki ən böyük şəhadətdir və o, bütün ilahi risalətlərdə imanın əsasıdır. Nuh, İbrahim, Musa, İsa və Muhəmmədə qədər bütün peyğəmbərlər, əleyhimu-ssalam, öz qövmlərini Allahdan başqa ibadətə layiq haqq məbud olmadığını iqrar etməyə, qəbul etməyə və iman gətirməyə dəvət etmişlər. Bu, o kəlmədir ki, Allah məxluqatı onun xatirinə yaratmış, onu bərqərar etmək üçün elçilər göndərmiş və onu bəyan etmək üçün kitablar nazil etmişdir. Allah bu kəlməni səmimi qəlbdən deyən kəs üçün Cənnəti bir mükafat etmiş və ona yəqinliklə inanaraq ölən kəsə Cəhənnəmi haram etmişdir.

Bu şəhadət kəlməsi imanın açarı, nicat qapısı, dinin əsası və tovhidin təməlidir.

Bu kəlməyə görə insanlar qəbirlərindən dirildiləcək və Qiyamət günü haqq-hesaba çəkiləcəklər. Kim bu kəlmə üzərində yaşayıb həyatını onunla sona çatdırarsa, böyük bir qurtuluşa nail olar. Kim də onu rədd edib tələffüz etməzsə, Cəhənnəmdə əbədi qalmağa layiq olar.

**"Şəhadət verirəm ki, Muhəmməd Allahın elçisidir, şəhadət verirəm ki, Muhəmməd Allahın elçisidir".**

"Şəhadət verirəm ki, Muhəmməd Allahın elçisidir".

Bu şəhadətin mənası: Müsəlmanın, Allahın Məhəmmədi ilahi risalətlərin sonuncusu və insanların Rəbbinin risalətini onlara çatdıran bir elçi olaraq göndərdiyinə şəhadət etməsidir. Həmçinin müsəlmanın, Allaha ibadət etməyin və Onun razılığını qazanmağın yeganə yolunun rəsulun - sallallahu aleyhi va səlləm - risalətinə şəhadət gətirmək, ona tabe olmaq, onu örnək götürmək və rəsul Məhəmmədin - sallallahu aleyhi va səlləm - çatdırdığı şəriətlə Allaha ibadət etmək olduğunu qəti şəkildə bilməsidir. Rəsulun çatdırmadığı, insanın (Allaha) yaxınlaşmaq üçün özündən ixtira edərək etdiyi hər bir ibadət batildir və sahibinə nə dünyada, nə də axirətdə fayda verməz. Əksinə, o, buna görə hesaba çəkiləcək və cəzalandırılacaqdır. Çünki o, rəsulunun - sallallahu

aleyhi va səlləm - çatdırdığından başqa bir şeylə Allaha ibadət etmişdir.

Bu şəhadət, peyğəmbərin - salləllahu aleyhi va səlləm - Allahın qulu və aləmlərin Rəbbinin elçisi, həmçinin rəsulların sonuncusu (onlara salam olsun) olduğunu və ondan sonra heç bir peyğəmbərin gəlməyəcəyini ehtiva edir. Eləcə də bu şəhadət, onun gətirdiyi bütün ayələrə və onların ən əzəmətlisi olan Qurani-Kərimə iman etməyi əhatə edir. Qurani-Kərim nazil olduğu dildə hələ də olduğu kimi mövcuddur, artırılmaqdan, əskildilməkdən və dəyişdirilməkdən qorunmuş sonuncu ilahi risalədir. Bu Qurani-Kərimin bəlağətində, hökmlərində və hidayətində tayı-bərabəri yoxdur. Uca Allah bəşəriyyəti ona bənzər bir surə də olsa gətirməklə meydan oxumuşdur. Onlar illər boyu bunun qarşısında aciz qalmış və bu günümüzə qədər də bəşəriyyət buna qadir olmamışdır.

Bu şəhadət, peyğəmbərin - salləllahu aleyhi va səlləm - ondan əvvəl İbrahim, Musa və İsanın - əleyhimu-ssalam - etdiyi kimi, insanları yenidən tövhidə qaytarmaq üçün gəldiyini ehtiva edir. O, aləmlərin Rəbbinin elçisidir və Rəbbinin risalətini təbliğ etməkdə bütün peyğəmbərlərin getdiyi yolla getmişdir, lakin ondan sonra heç bir peyğəmbər yoxdur.

**"Namaza tələsin! Namaza tələsin!"**

"Namaza tələsin!"

Cümlənin mənası: Ey möminlər, Rəbbinizin ibadətinə yönəlin, çünki O, bağışlayandır, rəhmlidir, tövbələri qəbul edir və pis əməlləri əfv edir.

Allahın, bir qrup müsəlmanın olduğu hər bir məkanda bir insana nidanı elan etməyi, hər gün beş dəfə onları çağırıb: "Gəlin, Rəbbinizin ibadətinə yönəlin" - deməyi əmr etməsi nə böyük bir şərəfdir!

Bu, möminlərə bir çağırış və xatırlatmadır ki, artıq Rəbblərinə ibadət etmək vaxtı çatmışdır və onlar özlərini məşğul edən dünya işlərindən əl çəkərək ibadətə yönəlməli, əllərindəki ticarəti və ya əkinçiliyi tərk edib Allaha üz tutmalıdırlar. Bu isə imanın sadiqliyinin bir sübutu olub, onun bütün dünya malından üstün olduğunu göstərir.

Bu, insanları namaza dəvət edən bir çağırışdır. Namaz qul ilə Rəbbi arasında birbaşa əlaqə, təbəqələşməni aradan qaldıran və insanları Rəblərinin qarşısında bərabər edən bir ibadətdir.

**"Nicata tələsin! Nicata tələsin!"**

"Nicata tələsin"

Nicat: dünyada və axirətdə Allahın razılığına nail olmaq, qalibiyyət, salamatlıq, qurtuluş tapmaq, əbədi səadətə çatmaq və doğru yola yönəlmək deməkdir.

Bu kəlmənin mənalarından biri də Allahın razılığını qazanmaq, Cənnətə nail olmaq və Cəhənnəm odundan qurtulmaqdır. Çünki iman gətirib namaz qılan kimsə artıq nicat tapmışdır. Nicat tapan kimsə isə qurtulmuş və Cənnətdə əbədi qalmağa nail olmuşdur.

Müəzzin hər namaz vaxtı möminlərə xatırladır ki, əmin-amanlığa, qəlb rahatlığına, ruh təmizliyinə, dünya və axirət səadətinə yönəlsinlər.

**"Allahu Əkbər, Allahu Əkbər, Lə İləhə illə-Llah"**

Azanı təkbir: “Allahu əkbər” deməklə və tövhid: “Lə İləhə illəllah” kəlməsi ilə sona çatdırmaq.

Azan "Allahu Əkbər" cümləsinin təkrarı və "Lə İləhə illəllah" kəlməsinin təsdiqi ilə yekunlaşır. Bu iki cümlə əvvəlki mənaları möhkəmləndirir və bəşər varlığı bu ikisi üzərində dayanır. Bu həqiqət kainatın və varlığın ən doğru həqiqətidir. İstər insan bunu dərk etsin, istərsə də etməsin, bilsin və ya bilməsin. Böyük həqiqətlərdən bəzi insanların cahil qalması ona zərər verə bilməz. Zaman nə qədər keçsə də, hadisələr bir-birini əvəzləsə də, bu həqiqət dəyişməzdir ki, Allah hər şeydən böyükdür, O, haqq İlahdır, ibadətə yalnız O layiqdir və Ondan başqasına edilən ibadət batildir.

Bu, Allahın uca tutduğunu uca tutmağa, Allahın Özünün Özü üçün, elçilərinin, əleyhimu-ssalam, və möminlərin də şahidlik etdiyi həqiqətə şəhadət verməyə bir dəvətdir.

Sonda: Azan təkcə namaza bir çağırış deyil, əksinə, həm də nicata, qələbəyə və uğura bir çağırışdır. O, qəlbləri oyatmaq, bizə Allahın yaxın olduğunu, hüzurun mümkün olduğunu və nicata aparan yolun namazla və qul ilə Xaliqi arasındakı əlaqə ilə başladığını xatırlatmaq üçün gündə beş dəfə məscidlərdə səslənən bir ismarıcdır.

Elə isə müəzzinlə birlikdə təkrar et: Allahu Əkbər, Allahu Əkbər, Lə İləhə illəllah. Tövhid şəhadətini söylə, Allahın Özü haqqında etdiyi şəhadətə və rəsullarının gətirdiyi haqqa şahidlik et ki, nicat tapanlardan və ibadətdə Allahı təkləşdirən müsəlmanlardan olasan.

Qəlbini imana aç və: "Əşhədu ən lə iləhə illa-Llah və əşhədu ənnə Muhamməədən rəsulu-Llah" ("Şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur. Və şəhadət edirəm ki, Məhəmməd ﷺ Allahın rəsuludur") de. Bununla Allahın rəhmətinə daxil olarsan, dünyada səadətə, axirətdə isə nicata qovuşarsan və Qiyamət günü möminlər zümrəsində dirildilərsən.

# Mündəricat

Azanın sözlərinin izahı ........ 2
Azanın sözlərinin izahı ........ 2
Azanın sözləri: ........ 2
Allahu Əkbər, Allahu Əkbər, Allahu Əkbər, Allahu Əkbər ........ 2
"Şəhadət verirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur, şəhadət verirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur". ........ 3
"Şəhadət verirəm ki, Muhəmməd Allahın elçisidir, şəhadət verirəm ki, Muhəmməd Allahın elçisidir". ........ 5
"Namaza tələsin! Namaza tələsin!" ........ 7
"Nicata tələsin! Nicata tələsin!" ........ 7
"Allahu Əkbər, Allahu Əkbər, Lə İləhə illə-Llah" ........ 8

az466v1.1 - 06/09/2026